Xalq qəzeti.- 2022.- 1 dekabr.

*Laçının azad olunmasından 2 il ötür*

# Zəfər tariximizin şanlı səhifəsi

**Şimaldan Kəlbəcər, cənubdan Qubadlı, şərqdən Xocalı, Şuşa və Xocavənd rayonları, qərbdən isə Ermənistanla həmsərhəd olan Laçın rayonunda işğal ərəfəsində 60 min nəfərə yaxın azərbaycanlı yaşayırdı. Lakin 30 il əvvəl erməni faşizmi tərəfindən işğala məruz qalan Laçın şəhəri yağmalanaraq yandırıldı, 1 qəsəbə, 125 kənd, 13745 fərdi yaşayış evi, 48 sənaye, 63 kənd təsərrüfatı obyekti, 109 təhsil, 142 səhiyyə, 217 mədəni-maarif müəssisəsi, 460 ticarət obyekti, 30 rabitə qovşağı ermənilər tərəfindən yerlə-yeksan edildi.**



Təbii ki, 1992-ci ilin mayında, Birinci Qarabağ müharibəsinin əvvəllərində, Ermənistan silahlı qüvvələrinin hərbi birləşmələri və separatçı qondarma rejimin qeyri-qanuni silahlı dəstələri tərəfindən Laçının işğalından sonra eyforiyaya qapılan erməni icması 44 günlük müharibəyə kimi daim bu yerlərdə yaşayacağına, Qarabağa daim sahiblik edəcəyinə hər dəqiqə özünü inandırsa da, bu əzəli-əbədi yurdumuzdan geri çəkilmək məcburiyyətində qaldı.

Xatırladaq ki, İkinci Qarabağ müharibəsindən sonra imzalanmış 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın müvafiq bəndlərinə uyğun olaraq Ağdam, Kəlbəcər və nəhayət, Laçın rayonu təcavüzkar Ermənistan tərəfindən ayrı-ayrı vaxtlarda boşaldıldı. Beləliklə, 30 ilə yaxın əsarətdə olan 3 rayon Ali Baş Komandan İlham Əliyevin müdrik hərbi-siyasi qabiliyyəti, canlarını bu torpağa qurban verən qəhrəman hərbçilərimizin fədakarlığı nəticəsində döyüşsüz, heç bir şəhid vermədən işğaldan azad olundu.

Burada bir məqamı da qeyd etmək istərdik. Laçın rayonunun əksər yaşayış məntəqələri 2020-ci il dekabrın 1-də düşməndən təmizlənsə də, ermənilərin 30 il ərzində məskunlaşdıqları Laçın şəhəri, Zabux və Sus kəndləri isə Rusiya sülhməramlılarının nəzarət zonasında saxlanıldı. Bu, məlum 10 noyabr 2020-ci il tarixli Bəyanatda da öz aydın ifadəsini tapan məsələ idi. Başqa sözlə, Laçın dəhlizindən keçən yolun üzərində yerləşdiyi adları çəkilən yaşayış məntəqələri Ermənistanı Xankəndi ilə birləşdirən 32 kilometr uzunluğunda yeni alternativ magistral cəmi bir il ərzində inşa edilərək, istifadəyə verildikdən sonra Rusiya sülhməramlıları həmin infrastruktur ətrafında qərarlaşdı. Təbii ki, Laçın şəhəri, Zabux və Sus kəndlərində qanunsuz məskunlaşdırılan ermənilər də oradan tamamilə çıxarıldı.

Bu məqamla bağlı dövlətimizin başçısı həmin tarixi hadisə ərəfəsində çıxışlarının birində demişdi: “Avqustun 5-i olmasın, 25-i olsun, sentyabrın 1-i olsun böyük fərq etmir. Eyni zamanda, Qarabağda yaşayan ermənilər bizə müraciət etdilər ki, Ermənistan sərhədinə birləşdiriləcək nöqtəyə qədər 4 kilometr qrunt yolu da Azərbaycan tiksin. Ona da biz razılaşdıq. Amma əlbəttə ki, Laçın şəhərindən, Zabux və Sus kəndlərindən qanunsuz məskunlaşmış insanlar çıxarılmalıdır. Bu, təbiidir. Onların orada qalması, əslində, hərbi cinayətdir. Çünki o, Cenevrə konvensiyalarının qaydalarına ziddir. İşğalçı ölkə işğal edilmiş torpaqlarda qanunsuz məskunlaşma apara bilməz”.

Beləliklə, Laçın şəhərinin, Zabux və Sus kəndlərinin Azərbaycana qaytarılması ilə rayon tamamilə Azərbaycanın nəzarətinə keçdi. Bu mühüm tarixi hadisə, ilk növbədə, ölkə Prezidentinin qətiyyətini, siyasi iradəsinin dönməzliyini göstərdi. Laçının qaytarılması ilə dövlətimizin başçısı “Qarabağ Azərbaycandır!” şüarını bir daha əyani şəkildə təsdiqlədi. Bununla da təkcə xalqımız deyil, bütün türk dünyası bayrağımızın Laçının mərkəzində dalğalanmasından böyük qürur hissi yaşadı.

Prezident İlham Əliyev bu il sentyabrın 21-də Laçın şəhərində Azərbaycan Bayrağını ucaldan zaman çıxışında bildirdi: “Ümid edirəm ki, laçınlıların birinci qrupu Laçın şəhərinə gələn ilin sonuna qədər qayıda bilərlər. Mən buna ümid edirəm və əlimdən gələni edəcəyəm ki, biz buna nail olaq, tezliklə Laçın şəhərini bərpa edək. Biz bütövlükdə Laçın rayonunu və bütün başqa rayonları bərpa edəcəyik.

İndi Azərbaycan xalqı görür ki, biz nəyə qadirik. Görür ki, biz müharibədə də qələbə qazanırıq, həyatda da qələbə qazanırıq və bizi güclü edən xalqın iradəsidir, xalqın birliyidir. Müharibədə də Zəfərimiz xalqın birliyi nəticəsində olmuşdur. Bu gün quruculuq-abadlıq işlərini apararkən bizi gücləndirən xalqın iradəsi, dəstəyidir”.

Hazırda Şərqi Zəngəzur iqtisadi bölgəsində yerləşən Laçında “Qorçu” elektrik yarımstansiyası, beynəlxalq hava limanı, uzunluğu 72,8 kilometr olan Kəlbəcər–Laçın avtomobil yolunda yeni tunel və “Həkəriçay” su anbarı layihələrinin sürətlə icrası, “Güləbird” yarımstansiyasından mənbə kimi istifadə olunmaqla Güləbird–Minkənd kəndi istiqamətində 35 kV-luq xəttin çəkilməsi, Radio-Televiziya Yayımı Stansiyasının istismara verilməsi artıq laçınlıların ilk qrupunun doğma yurdlarına dövlətimizin başçısının vurğuladığı kimi, gələn ilin sonuna qədər qayıda biləcəkləri əminliyi yaradır.

**Vaqif BAYRAMOV,**
**“Xalq qəzeti”**